


# Zəngilan:
# Böyük Qayıdışın qürur yaşadan tarixi anları

***Böyük Qayıdışa dair Dövlət Proqramı Azərbaycanın işğaldan azad edilmiş ərazilərində sosial-iqtisadi inkişafı sürətləndirmək, məcburi köçkünlərin doğma yurdlarına qayıdışını təmin etmək, Qarabağı müasir və yaşayış üçün əlverişli bir bölgəyə çevirmək məqsədi daşıyır. Həmin Dövlət Proqramı çərçivəsində həyata keçirilən tədbirlər nəticəsində azad edilmiş ərazilər sürətlə inkişaf edir, keçmiş məcburi köçkünlər öz yurdlarına qayıdır, Qarabağ və Şərqi Zəngəzur regionu Azərbaycanın ən inkişaf etmiş bölgələrindən birinə çevrilir. Bu proses həm də beynəlxalq səviyyədə Azərbaycan dövlətinin humanitar və iqtisadi gücünü nümayiş etdirir.***

İşğaldan azad edilmiş ərazilərin dirçəlişi üçün 2020-ci ildən başlayaraq dövlət büdcəsindən cəmi 22 milyard manata yaxın vəsait, o cümlədən 2025-ci ildə 4 milyard manat ayrılıb. Bu günə qədər 2417 ailə - 9306 nəfər azad olunmuş ərazilərə köçürülüb. Məskunlaşmadan əlavə olaraq burada ümumilikdə 30 minə yaxın insan yaşayır. Hansı ki, onlar burada müxtəlif qurumlarda fəaliyyət göstərirlər. Qeyd edək ki, Vətən müharibəsi başa çatdıqdan sonra ilk köç 19 iyul 2022-ci il tarixində Zəngilan rayonunun Ağalı kəndinə oldu. Birinci mərhələdə 41 ailə doğma yurduna qovuşdu. Hazırda Ağalı kəndində 175 ailə (871 nəfər) daimi məskunlaşıb.

Ağalı kəndi Şərqi Zəngəzurun bərpasının başlanğıc nöqtəsidir. Bu kənd Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə həyata keçirdiyi möhtəşəm tikinti və inkişaf proqramlarının yalnız bir nümunəsidir. Bu gün burada insanlar yalnız evlərinə yox, həm də öz gələcəklərinə qayıdırlar. Ağalı kəndi Azərbaycanın gələcəyə baxışının təcəssümüdür. "Ağıllı kənd" konsepsiyası əsasında yenidən qurulan bu məkan müasir texnologiyaların ənənəvi kənd təsərrüfatı ilə harmonik vəhdətini nümayiş etdirir. Burada hər şey "ağıllıdır": evlər, suvarma sistemləri, enerji mənbələri, gecə-gündüz çalışan günəş panelləri, kənd təsərrüfatında tətbiq olunan müasir texnikalar, təhlükəsizlik və rabitə sistemləri Ağalını müasir texnologiyanın zirvəsinə yüksəldir. 30 ilə yaxın işğal altında qalan Ağalıda artıq həyat tamamilə dəyişib. Burada "ASAN xidmət" mərkəzi, bank xidməti, Kiçik və Orta Biznesin İnkişafı Mərkəzi, marketlər, poçt məntəqəsi, kafe və çayxanalar, mehmanxana fəaliyyət göstərir. İnsanlar ehtiyac duyduğu hər şeyi burada tapa bilir. Ağalıda hər kəs üçün iş yeri var, burada məşğulluq problemi yoxdur.



Ümumiyyətlə, Zəngilan rayonu Qarabağ və Şərqi Zəngəzur regionunda ən böyük layihələrin icra edildiyi məkanlardan biridir. Ağalı kəndi ilə yanaşı, burada inşa edilən hava limanı rayona ən ali səviyyədə diqqət və qayğının göstəricisidir. İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərdə inşa edilən ikinci hava limanı Zəngilanı beynəlxalq nəqliyyat və logistika mərkəzinə çevirmək üçün yeni üfüqlər açır.

Hava limanı ən müasir standartlara uyğun tikilib. Burada sərnişinlərin rahatlığı və təhlükəsizliyi hər şeydən önəmlidir. Hava limanının geniş və müasir terminalı həm estetik gözəlliyi, həm də funksionallığı ilə seçilir. Terminal daxilində beynəlxalq standartlara uyğun check-in, baqaj xidmətləri və gözləmə zalları sərnişinlərə yüksək səviyyədə xidmət göstərir. Burada səyahət edənlər üçün restoranlar, mağazalar və rahatlıq üçün hər cür şərait yaradılıb. Saatda 200 sərnişinə xidmət göstərmək gücünə malik terminal İtaliya, Almaniya və Türkiyədən gətirilən müasir avadanlıqlarla təchiz edilib. Ziyarətçilər yalnız yüksəkkeyfiyyətli xidmətlə deyil, həm də xüsusi dizayn edilmiş məkanın rahatlığı ilə qarşılaşır. Hətta terminalda kafelərdən tibb xidməti məntəqəsinə, ofis otaqlarından "VIP" xidmətlərə qədər hər detal düşünülüb.

**(davamı 6-cı səhifədə)**






# ZƏNGİLAN:

## Böyük Qayıdışın qürur yaşadan tarixi anları

(əvvəli 1-ci səhifədə)

Zəngilan Hava Limanında yerləşən tam avtomatlaşdırılmış Hava Hərəkətini İdarəetmə Qülləsi, beynəlxalq standartlara uyğun olaraq ən son aviasiya texnologiyaları ilə təchiz edilib. İLS/DME instrumental eniş sistemləri, VOR/DME marşrut naviqasiya vasitələri və radar sistemləri təhlükəsiz və dəqiq uçuş təminatını yüksək səviyyəyə qaldırır. Bu müasir sistemlərin hamısı "ICAO" və "Eurocontrol" tərəfindən tanınaraq beynəlxalq aviasiya kataloqlarında rəsmi olaraq qeydiyyata alınıb. Bu nəhəng hava limanının yalnız səmada deyil, həm də torpaqda möhkəm dayaqları var. Təxminən 10 kilometr uzunluğunda 35 kilovoltluq elektrik xətti çəkilib və 230 metr dərinlikdə qazılan artezian quyusu ilə su təminatı yaradılıb. Hava limanının açılışı 2022-ci il oktyabrın 20-də Prezident İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə baş tutub.

Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Zəngilana birgə səfəri tarixə qardaşlıq, birlik və strateji əməkdaşlığın ən parlaq nümunələrindən biri kimi yazıldı. Liderlər səfər zamanı Zəngilan rayonunda "Dost Aqropark" ağıllı kənd təsərrüfatı kompleksinin birinci mərhələsinin açılışında iştirak etdilər. "Dost Aqropark" Azərbaycan və Türkiyənin birgə təşəbbüsü ilə yaradılmış ilk iri kənd təsərrüfatı komplekslərindən biridir. Zəngilan torpaqlarında qurulan bu aqropark, müasir texnologiyalara əsaslanan istehsal sistemləri, yüksək məhsuldarlıq və ekoloji təmiz məhsul yetişdirilməsi ilə seçilir. Səfər zamanı liderlər aqroparkda görülən işlərlə yaxından tanış oldular, burada qurulan aqrotexniki avadanlıqlar, suvarma sistemləri və logistik infrastruktur barədə məlumat aldılar. Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan, "Dost Aqropark"ın həm Azərbaycanın, həm də Türkiyənin kənd təsərrüfatı sahəsində əməkdaşlığının möhkəmlənməsində mühüm rol oynayacağını vurğuladılar. Prezident İlham Əliyev "Dost Aqropark"ın azad edilmiş ərazilərdə ərzaq təhlükəsizliyinin təmin edilməsində, habelə regionun iqtisadi dirçəlişində xüsusi əhəmiyyət kəsb etdiyini qeyd etdi. Prezident Ərdoğan isə bu təşəbbüsün Azərbaycan və Türkiyə arasında dostluğun və iqtisadi tərəfdaşlığın güclü göstəricisi olduğunu bildirdi. "Dost Aqropark"ın ikinci və üçüncü mərhələləri üzrə işlər hazırda tam gücü ilə həyata keçirilir.

Bu mərhələlər tamamlandıqda, 6 min hektar ərazidə geniş kənd təsərrüfatı sahələri yaradılacaq. Burada bitkiçilik, toxumçuluq və şitilçilik sahələri ilə yanaşı, 10 min baş yüksək məhsuldarlığa malik cins heyvanın yetişdirilməsi üçün maldarlıq təsərrüfatı qurulur.

Kompleksdə, həmçinin bölgədə fəaliyyət göstərən bütün təsərrüfatları dəstəkləmək üçün 100 min ton tutuma malik anbar inşa olunacaq. İnteqrasiya olunmuş ət emalı və qablaşdırma müəssisəsi isə Qarabağda istehsal olunan halal qida məhsullarını dünya bazarına çıxarmaq üçün ideal şərait yaradacaq. Bu məhsullar "Made in Qarabağ" brendi ilə qlobal arenada öz yerini tutacaq. "Dost Aqropark" ağıllı kənd təsərrüfatı texnologiyalarının tətbiqi ilə fəaliyyət göstərir. Sıfır tullantı, bərpaolunan enerji mənbələrindən istifadə və dayanıqlı kənd təsərrüfatı praktikaları bu kompleksin fəaliyyətində əsas istiqamətlərdən biridir. Ətraf mühitin mühafizəsinə xüsusi önəm verən kompleks halal qida prinsiplərinə uyğun istehsal modeli ilə həm ekoloji tarazlığı qoruyacaq, həm də sağlam və keyfiyyətli məhsullar təklif edəcək. Layihənin həyata keçirilməsi üçün ümumilikdə 100 milyon ABŞ dolları sərmayə qoyulub. Tam gücü ilə fəaliyyətə başladıqda kompleksdə 500 nəfər işlə təmin olunacaq. Bu, təkcə Qarabağın iqtisadi dirçəlişi deyil, həm də yerli sakinlər üçün yeni məşğulluq imkanlarının yaradılması deməkdir. "Dost Aqropark"ın təməli 2021-ci il oktyabrın 26-da Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qoyulub. Bu aqropark Azərbaycan və Türkiyənin birgə gücü ilə Qarabağ və Şərqi Zəngəzur bölgələrində ərzaq təhlükəsizliyi, kənd təsərrüfatı innovasiyaları və iqtisadi inkişaf üçün misilsiz imkanlar yaradır.




Dövlət başçısının bu il oktyabrın 3-də Zəngilana səfəri də bir sıra mühüm hadisələrlə yadda qalıb. Səfər zamanı Prezident İlham Əliyev bir sıra obyektlərin təməlini qoyub və ya açılış mərasimində iştirak edib. Ölkə başçısı tərəfindən Zəngilan şəhərində təməli qoyulan beşinci yaşayış kompleksi əhalinin məskunlaşmasında xüsusi rol oynayacaq. Yaşayış kompleksi şəhərin mərkəzi hissəsində, orta sıxlıqlı və çoxfunksiyalı zonada yerləşir. Kompleksin ərazisi məktəb və uşaq bağçası, Zəngilan Konqres Mərkəzi və şəhər parkının yaxınlığında yerləşir. Yaşayış məhəlləsi 5 hektar ərazini əhatə edir. Burada binalar 3, 4, 5 və 6 mərtəbədən ibarət olacaq. Ümumilikdə bu yaşayış kompleksində 334 mənzilin inşası nəzərdə tutulub.










Zəngilan şəhərində tikintisi davam etdirilən layihələrdən biri də 104 mənzilli yaşayış kompleksidir. Kompleksin təməli 2022-ci il oktyabrın 19-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub. 12 binadan ibarət yaşayış kompleksinin ümumi sahəsi 1,92 hektardır və burada 104 mənzil inşa olunub. Kompleksdəki binaların inşasında modern və minimalistik memarlıq yanaşmalarından, həmçinin milli naxış elementlərindən istifadə edilib. Yaşayış məhəlləsi şəhərin mərkəzi hissəsində, məktəb, uşaq bağçası və şəhər parkının yaxınlığında, orta sıxlıqlı və çoxfunksiyalı zonada yerləşir.

Zəngilanın bərpası konsepsiyasında şəhərin turizm potensialı da nəzərə alınaraq ona uyğun infrastruktur yaradılır. 2023-cü il mayın 4-də Prezident İlham Əliyev tərəfindən təməli qoyulan Zəngilan İstirahət Kompleksində tikinti işləri davam edir. Hotel binasında 111 nömrə, konfrans, iclas və ziyafət zalları, fitnes və spa mərkəzləri, qapalı və açıq hovuzlar, restoran və uşaq-əyləncə mərkəzləri yaradılacaq. İstirahət kompleksinin ərazisində, həmçinin 10 kottec də qonaqların istifadəsinə veriləcək. Hoteldə 70 nəfərdən çox işçinin fəaliyyət göstərməsi nəzərdə tutulub. Kompleksin ərazisində üzüm və digər meyvə bağları salınacaq. Bir sözlə, müxtəlif çeşidli yüksək xidmətlərin göstəriləcəyi hotel kompleksi müasir standartlar səviyyəsində inşa olunur. Rayona səfərə gələnlərin rahatlığı üçün burada hər cür şərait yaradılır.

**Musa BAĞIRLI,**
**"Respublika".**